# BU QAN YERDƏ QALMAYACAQ



Aydın Abbasov,
"Azərsu" Açıq Səhmdar cəmiyyətinin Departament rəisi, II dərəcəli "Əmək" ordenli, "Tərəqqi" medallı

**1988-ci ildə ermənilərin Azərbaycanın tarixi torpaqlarını, milli mədəniyyətimizin qədim mərkəzlərindən olan Dağlıq Qarabağı Ermənistana birləşdirmək iddiaları ilə başlayan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi illərdir davam edir. Bu münaqişə nəticəsində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan torpaqlarının 20%-i işğal olunmuş, bir milyonluq qaçqın və məcburi köçkün ordusu yaranmışdır.**

### *Dağlıq Qarabağ münaqişəsi*

yalnız Cənubi Qafqazın Rusiyaya birləşdirilməsindən sonra bu ərazilərdə xarici mühacirlər hesabına kütləvi məskunlaşmağa başlayan ermənilərin Azərbaycana qarşı son iki əsr ərzində apardıqları işğalçılıq, soyqırım və terror fəaliyyətinin yeni bir mərhələsi idi. XIX-XX əsrlərdə tarixi Azərbaycan torpaqlarının böyük bir hissəsi, Qərbi Azərbaycan ermənilərin bu fəaliyyəti nəticəsində zəbt olunmuş, yüz minlərlə insan qətlə yetirilmiş, etnik təmizləmə həyata keçirilmiş, xalqımıza qarşı aşkar soyqırımı siyasəti törədilmişdir. 1828-ci ildə Türkmənçay müqaviləsi imzalanandan sonra da, 1905-1907-ci, 1918-1920-ci, 1940-1950-ci illərdə də belə olmuşdur.

Hələ XIX əsrdən başlayaraq "Qnçaq", "Daşnaksutyun", "ASALA" kimi peşəkar terror təşkilatları yaratmış ermənilərin azərbaycanlılara qarşı törətdikləri ən faciəli soyqırımı hadisələrindən biri 1992-ci ildə Dağlıq Qarabağda, Xocalıda baş verdi. 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri və separatçı terror dəstələri keçmiş SSRİ-nin Xankəndində yerləşən 366-cı motoalayının bilavasitə iştirakı ilə Azərbaycan xalqına qarşı misli görünməmiş Xocalı soyqırımı törətdilər. Ermənilər Xocalı əhalisinə vəhşicəsinə divan tutmuş, həmin hadisə zamanı yüzlərlə insan, o cümlədən qocalar, qadınlar və uşaqlar xüsusi amansızlıqla qətlə yetirilmiş, əsir və girov götürülmüş, şəhər yerlə-yeksan edilmişdir. Xocalı işğal olunarkən dinc əhaliyə şəhərdən çıxmaq üçün dəhliz qoymayan cinayətkar heç kimə aman verməmişdir. Hadisədən bir neçə gün sonra telereportyorlar tərəfindən lentə alınan dəhşətli kadrlar, yerli, və xarici jurnalistlərin reportajları bütün dünyanı sarsıtdı. Əsas etibarilə qocalar, qadınlar və uşaqlardan ibarət olan onlarla meyitin alın dərisi soyulmuş, sifətləri güllələrlə və avtomat qundaqları ilə dağıdılmış bədən əzaları kəsilmişdi. Vəhşicəsinə törədilən bu hadisə ermənilərin "öz müqəddəratını təyin etmə hüququ"nun əsl mahiyyətini göstərir.

***Xocalı faciəsinin tarixdə bir daha təkrarlanmaması üçün onun baş vermə şəraitinə yenidən nəzər salmaq, beynəlxalq ictimaiyyətin bu hadisəyə hüquqi-siyasi qiymət verməsinə nail olmaq lazımdır.***

### *Xalqımıza qarşı aparılan soyqırım siyasəti*

beynəlxalq səviyyədə özünün siyasi-hüquqi qiymətini tapmadığı üçün tarixi faktlar dünya mətbuatında ermənilər tərəfindən təhrif olunur. Nə qədər dünya Xocalıda baş vermiş, 1988-1994-cü illərdə azərbaycanlılara qarşı törədilmiş soyqırımına, onların öz torpaqlarında məcburi köçkün olmalarına biganədir, növbəti faciələrdən sığortalanmaq mümkünsüzdür.

Yalnız tarixi və hüquqi faktlara vicdanlı münasibət sayəsində keçmişlə üzülüşmək olar, əks təqdirdə bu hadisələr həmişə bizi təqib edəcək. Ermənistan baş vermiş vəhşiliklərə görə çəkinmir, əksinə, azərbaycanlıların soyqırımına həyasızcasına haqq qazandırılır, bu faciəni törədənlər isə milli qəhrəman sayılırlar.

Ermənistanda açıq anti Azərbaycan siyasəti yürüdülür, yeni Azərbaycan torpaqlarının ilhaq olunması üçün dövlət miqyasında ideoloji əsaslar yaradılır.

### *Saxtalaşdırılmış erməni tarixi*

gənc ermənilərin şovinist ruhda böyüməlırinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılır.

**Qeyd etmək lazımdır ki, Azərbaycan xalqı 200 il ərzində erməni millətçi-şovinistlərinin davamlı olaraq etnik təmizləmə, soyqırım siyasətinə məruz qalmışdır. Azərbaycan xalqı tarixi torpaqlarından qovulmuş, qaçqına, məcburi köçkünə çevrilmiş və bütün bunlar ermənilər tərəfindən kütləvi qırğınlarla müşayət olunmuşdur.**

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan hərbi birləşmələri 7 min əhalisi olan Xocalı şəhərində genosid aktı həyata keçirdi. Ermənistan hərbi birləşmələrinin şəhərə hücumu zamanı burada yalnız 3 minə yaxın insan qalmışdı.

***Çünki, mühasirədə qaldığı 4 aydan artıq zaman ərzində blokadada olduğu üçün əhalinin xeyli hissəsi şəhərdən çıxmaq məcburiyyətində qalmışdı. Xocalı soyqırımı zamanı 613 nəfər öldürüldü, 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil oldu.***

***106 nəfər qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürüldü. 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 nəfər valideynlərindən birini itirdi. Faciə baş verən gecə 1275 nəfər dinc sakin girov götürüldü, onların 150-nin taleyi indi də məlum deyil.***

Şəhər əhalisinin bir hissəsi zorakılıqdan qaçıb qurtarmaq istəyərkən əvvəlcədən düzəldilmiş pusqularda qətlə yetirilmişdir.

Rusiyanın "Memorial" hüquqmüdafiə mərkəzinin məlumatına əsasən, dörd gün ərzində Ağdama Xocalıda qətlə yetirilmiş 200 azərbaycanlının meyiti gətirilmiş, onlarla meyitin təhqirə məruz qalması faktı aşkar edilmişdir.

Ağdamda 181 meyit (130 kişi və 51 qadın, o cümlədən 13 uşaq) məhkəmə-tibbi ekspertizasından keçirilmişdir. Ekspertiza zamanı müəyyən edilmişdir ki, 151 nəfərin ölümünə güllə yaraları, 20 nəfərin ölümünə qəlpə yaraları səbəb olmuş, 10 nəfər küt alətlə vurularaq qətlə yetirilmişdir.

Heydər Əliyevin 24 fevral 1996-cı ildə Xocalı ictimaiyyətinin nümayəndələri ilə görüşdə dediyi kimi, "Bu faciəni heç vaxt unutmaq olmaz.

Və zaman keçdikcə, əksinə, biz dünyaya daha da kəskin göstərməliyik, xalqımıza göstərməliyik, gənc nəsillərə göstərməliyik, hamı bilsin ki, xalqımızın başına nə kimi faciə gəlibdir və eyni zamanda, xalqımız öz azadlığı, öz Vətəni, öz torpağı uğrunda nə qədər qurbanlar verib, nə qədər qəhrəmanlıq nümunələri göstəribdir.

**Min illərlə formalaşmış mənəvi-dini dəyərlərə, hərb mədəniyyətinə və əxlaqına zidd olan, dinc əhaliyə qarşı yönəldilmiş Xocalı soyqırımı bəşəriyyətin ötən əsrin sonlarında ən böyük və ən dəhşətli faciəsidir. Xocalı hadisəsi əkssədası tarix boyu qulaqlarda səslənəcək soyqırım aktıdır. Xocalı faciəsi erməni millətçilərinin xalqımıza qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin qanlı səhifəsidir. 2016-cı il Aprel döyüşləri bir daha təsdiq etdi ki, biz öz torpaqlarımızı hörmətli Prezidentimiz cənab İlham Əliyevin uğurlu siyasəti nəticəsində işğaldan azad edəcəyik. Cəbrayıl rayonunun Cocuq-Mərcanlı kəndində aparılan quruculuq işləri buna əyani sübutdur. Artıq Cocuq-Mərcanlıda həyat qaynayır. Hamı bir daha əmin olmalıdır ki, bu qan yerdə qalmayacaq.**